# Gəncə: Bayrağımız qürurumuzdur!

***Gəncədə bir Bayraq Meydanı var. Şəhərin hər bir sakini, qonaqlar bu bayrağın əzəmətlə dalğalandığını həmişə böyük qürur hissi ilə seyr edirlər. İlk dəfə məhz Gəncədə, 103 il əvvəl mayın 28-də ucalan Bayraq bu dəfə, yəni noyabrın 9-u günü sanki bir qədər də doğmalaşmış, gözümüzdə səmanın sonsuzluğuna qədər gedib çıxmışdı…***



Budur, şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, millət vəkilləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri və qazilər, ictimaiyyət nümayəndələri Bayrağın ətrafına toplaşırlar. Dövlət Himnimiz səsləndirilir. Ardınca Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilir…

Çıxışlar olur. Hərə öz ürək sözünü deyir. Biri deyir ki, bu dəfə bayrağımız mənə daha əziz göründü. Çünki Vətən müharibəsindəki tarixi Qələbəmizdən sonra ilk dəfədir ki, Bayraq Günümüzü üzüağ, alnıaçıq keçiririk və buna bizim haqqımız var! Başqa birisi deyir ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı milli suverenliyimizin simvolu, qürur mənbəyimizdir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Sadə bir şəhər sakini söz alıb həyacanla danışır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

Millət vəkili Pərvin Kərimzadə çıxış edir: "Üçrəngli dövlət bayrağımız mübarizə əzmimizin, zəfər sorağımızın, istiqlaliyyət salnaməmizin ilk müjdəçisi oldu, bizi Vətən uğrunda müqəddəs döyüşlərə səslədi. Bütün dünyaya müstəqil dövlətimizin varlığını bəyan edən, 180-dən çox dövlətin bayraqları ilə bir sırada dalğalanan Azərbaycan bayrağı bu gün müzəffər ordumuzun rəşadəti sayəsində ölkəmizin işğaldan azad edilən hər bir kəndində, hər bir şəhərində əzəmətlə dalğalanır".

"Vətən Müharibəsi–Gəncə şəhidləri" və "Zəfər salnaməsi" kitabları meydana gətirilir. Şəhər icra hakimiyyətinin təşəbbüsü ilə nəfis şəkildə tərtib olunmuş kitablardır. Birincisi AMEA-nın Gəncə bölməsi tərəfindən nəşr olunub. Bölmənin sədri, akademik Fuad Əliyev çıxış edir: "Ali Baş Komandan cənab İlham Əliyevin uzun illər ərzində apardığı müdrik daxili və xarici siyasətin nəticəsidir ki, İkinci Qarabağ – Vətən müharibəsində müzəffər ordumuzun qələbəsi dünyanın hərb tarixinə qızıl hərflərlə həkk olundu. "Vətən müharibəsi – Gəncə şəhidləri" kitabı şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların tanıdılması məqsədilə hazırlanıb. Burada 107-si hərbi, 26-sı mülki olmaqla, ümumilikdə, 133 Vətən müharibəsi şəhidinin tərcümeyi-halı öz əksini tapıb".

Sonra "Vətən Müharibəsi – Gəncə şəhidləri" kitabı tədbirdə iştirak edən şəhid ailələrinə verilir. Kitabı bağrına basıb öpən kim, başının üstünə qaldıran kim, oğlunun adını axtarıb taparaq "bu, mənim balamdır" deyib ucadan qışqıran kim...



ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov digər kitab haqqında danışır: "Zəfər salnaməsi" kitabı şanlı Qələbəmizin ildönümünə həsr olunmuş daha bir töhfədir. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə ehtiramını daha da möhkəmləndirdi. Bu xoşbəxtliyi və qüruru bizə yaşadan Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Ordumuza minnətdarıq".

…Həzin musiqi sədaları ətrafa yayılır... F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunan geniş konsert proqramı ilə çıxış edir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 14 noyabr.- S.7.